ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Tədqiqatın strukturu: Giriş

***Təlimat***

# GİRİŞ (Introduction)

Giriş mövzunu oxucuya təqdim edən və araşdırmanın hansı problemə yönəldiyini izah edən bölmədir. Bu hissədə mövzunun mahiyyəti, əhəmiyyəti, məqsədi və araşdırmanın niyə aparıldığı aydın şəkildə göstərilir.

***Giriş bölməsinə aşağıdakılar daxil edilməlidir:***

- Qısa şəkildə mövzunun mahiyyəti və önəmini vurğulayan ədəbiyyat nəzərdən keçirilməlidir.
- Mövcud boşluqlar (research gap) müəyyən edilməlidir.
- Tədqiqatın  məqsədləri təqdim edilməlidir.
- Tədqiqat sualı və hipotezləri aydın şəkildə ifadə edilməlidir.
- Tədqiqatın yeniliyi, eləcə də nəzəri və ya praktik töhfələri vurğulanmalıdır.

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

***Tədqiqatın strukturundan asılı olaraq, Ədəbiyyat icmalı (Literature review) girişə inteqrasiya oluna və ya ayrıca bölmə kimi müstəqil başlıq altında təqdim oluna bilər.***

# Ədəbiyyat icmalı girişə inteqrasiya kimi
# Nümunə 1:

## Introduction: researching gender in higher education – where and why

Despite stated aims across higher education (HE) institutions to further equality, diversity and inclusion, spaces which are truly open to reflexive interrogations of gender and gendered exclusions are often pushed to the periphery of the academy. Beyond its inherent value 'for its own sake', the focus and approach of Gender Studies and feminist inquiry fosters core skills that are championed in students, including the propensity to be inherently challenging, critical and political (Wieler 2010; Darder and Baltodano 2003; Gore 1992). Mainstreaming gender pedagogy can also support students to develop tools to critique and problematise ideas (Gore 1992), and challenge epistemological foundations (Mügge et al. 2018). No subject or content will continue to look the same when examined through the lens of gender thinking (Davis, Evans, and Lorber 2006). Our intention is to lay foundations for ongoing collaborative development to embed gender-sensitive

**İstinad:** Hinton-Smith, T., Marvell, R., Morris, C., & Brayson, K. (2022). "It's not something that we think about with regard to curriculum." Exploring gender and equality awareness in higher education curriculum and pedagogy. *Gender and Education*, *34*(5), 495–511. https://doi.org/10.1080/09540253.2021.1947472

### *Absences and presences*

Previous research has developed understanding by interrogating *formations* of gender and HE pedagogies (Burke et al. 2013, 2017). We further consider the extent to which awareness around gender is present or absent in HE spaces at all. This takes inspiration from critical discourse analysis in demanding attention to both absences and presences to understand power relations (Fairclough 2010). Theoretical perspectives illuminating presences and absences are central to this research, including those around feminist knowledge(s); responsibility for change; acknowledgement of the very relevance of gender; and existence of gendered inequalities in particular temporally-bound HE spaces.

### *Situating knowledges*

Henderson (2015) traces the evolution of gender pedagogy and its role deconstructing conventions of academic knowledge production. Feminist perspectives have addressed conventions in curricula and what these mean for knowledge (re)production and prestige continually drawing attention to dominant epistemological positionalities (Kandiko Howsona, Coate, and de St Croix 2018). Nevertheless, successive feminist theorisations have struggled to overturn which dominant paradigms occupy the 'narrow tributary' of accepted and prioritised epistemologies (Quinn 2010). Even in sociology, for example, remains a tendency to prioritise 'founding fathers' (Braidotti 2013). A feminist approach

# Ədəbiyyat icmalı girişə inteqrasiya kimi

## Nümunə 2:

### GİRİŞ

Keyfiyyətli peşə təhsili sistemi həm fərdi, həm təşkilati, həm də milli kontekstdə əhəmiyyətli nəticələrin əldə olunmasını təmin edir. Onun sayəsində məzunlar daha qısa zamanda iş tapır, iş alternativləri çoxalır, müxtəlif peşə bacarıqlarına yiyələnirlər. Müəssisələr isə keyfiyyətli peşə təhsili sayəsində biznes proseslərini təkmilləşdirə, müştəri məmnuniyyətini və rəqabət qabiliyyətini artıra bilirlər. Milli kontekstdə keyfiyyətli peşə təhsili ölkənin iqtisadi inkişafına və sosial rifahına mühüm töhfə verir.

Tədris müəssisəsində verilən təhsilin keyfiyyəti barədə ən doğru məlumatı verən mənbə onun məzunlarıdır. Məzunların məşğulluq dərəcəsi öyrəndikləri bilikləri iş həyatında tətbiqetmə sıxlığı, onların tədrisin məzmunu və keyfiyyətindən məmnunluq səviyyəsi, məzun olduqdan sonra işə qəbul mərhələsində və iş həyatı boyu kifayət qədər məlumatlı olmadıqları mövzularla bağlı fikir və düşüncələri tədris müəssisəsinin özünü qiymətləndirərkən əsas götürə biləcəyi göstəricilərdir. Ümumiyyətlə, təhsil müəssisələrinin keyfiyyəti onların məzunlarının məşğulluq vəziyyəti və sahələri, statusları, peşə nailiyyətləri, peşələrinə olan münasibətləri ilə ölçülür (Morkoç və Doğan, 2014).

Təhsilin digər pillə və səviyyələrində olduğu kimi peşə təhsili də əmək bazarındakı dəyişikliklərə çox həssas olmalıdır. Burada da tədris prosesinin sektor nümayəndələri ilə birlikdə planlaşdırılması kimi bir çox digər əməkdaşlıq fəaliyyətləri həyata keçirilməlidir. Sənaye ilə peşə məktəbləri arasında əməkdaşlığın əsas məqsədi kadrlara əmək bazarının tələblərinə uyğun peşə bacarıqlarının qazandırılmasıdır. Tələbələrin əmək bazarına uyğun peşə bacarıqlarının qazandırılmasında əsas amillərdən biri də müəllimlərin keyfiyyətidir. Müəllimin keyfiyyəti tələbə nəticələrini ən çox müəyyən edən amillərdən biridir (Barber & Mourshed, 2007; Darling-Hammond, 2000; Milanowski, 2004). Ona görə də müəllimlərin səriştələrinin yüksəldilməsi bütövlükdə təhsil sisteminin keyfiyyətini artırır. Peşə təhsilinin əmək bazarının tələbatındakı dəyişikliklərə daha həssas olması peşə təhsili müəssisələrinin mühəndis-pedaqoji heyətinin bilik və bacarıqlarının da davamlı inkişaf etdirilməsini tələb edir. Bu da öz növbəsində mühəndis-pedaqoji heyət üçün nəzərdə tutulan təkmilləşdirilmə tədbirlərinin əhəmiyyətini artırır.

Bu tədqiqatın məqsədi peşə təhsili müəssisələrinin əmək bazarının tələblərinə uyğun kadr yetişdirmələri üçün hansı tədbirləri gördüyünü, məzunların məşğulluq vəziyyətini, məzunların peşə təhsili müəssisələrinin

**İstinad:** Sultanlı, L. (2025). Peşə təhsili müəssisələrində mühəndis pedaqoji heyətin bilik və bacarıq səviyyəsinin əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasına təsiri. *Azərbaycan məktəbi*. № 2 (711), səh. 9–19. https://doi.org/10.30546/32898065.2025.2.010

# Ədəbiyyat icmalı ayrıca bölmə kimi
# Nümunə 1:

## Introduction

In the area of accountability, assessment is a routine and unavoidable activity in schools. Findings from the assessment provide information on how well students are learning and indicate how well teachers are performing their duties in return, which further reflects on the competencies of the school management team as a whole. Teachers regularly communicate to students about the success of their learning in the form of feedback and assessment results. Despite the importance of assessment and assessment seen as an inseparable component of the learning process, controversy over assessment still exists.

## Literature review

*Conceptions of assessment*

The conceptions of assessment have been defined as an individual or subjective understanding of assessment, including information, beliefs, feelings, and what assessment means to teachers and students (Brown, 2022). Many researchers examined the conceptions of assessment among teachers, trainee teachers, and students in different educational settings, including schools, colleges, and higher learning institutions. Brown *et al.* (2019) synthesized the findings from eight locations, including New Zealand, Queensland (Australia), Hong Kong, Cyprus, Catalonia, Egypt, India, and Ecuador. The authors noted that conceptions of assessment vary, and teachers' and students' beliefs depend on the socio-cultural context and policy framework in which they operate.

**İstinad**: Al-Haddad, S. S., Afari, E., Khine, M. S., & Eksail, F. A. A. (2023). Self-regulation, self-confidence, and academic achievement on assessment conceptions: an investigation study of pre-service teachers. *Journal of Applied Research in Higher Education*, *15*(3), 813–826. https://doi.org/10.1108/JARHE-09-2021-0343

# Ədəbiyyat icmalı ayrıca bölmə kimi

## Nümunə 2:

### GİRİŞ

Bu gün iqtisadiyyatın biliyə əsaslanması ali təhsilin və onu təmsil edən universitetlərin qlobal rəqabətdə çox mühüm mövqeyə malik olduğunu göstərir. Çünki ATM-lər ölkənin siyasətindən tutmuş iş dünyasının tələblərinə qədər cəmiyyət üçün vacib olan bir çox işləri müvəffəqiyyətlə həll edə bilən mütəxəssis hazırlığını həyata keçirir. Bu öhdəliyi yerinə yetirmək üçün onların strateji planlaşdırmaya ehtiyacı var. Strateji planlaşdırma təşkilatların məqsədlərinə çatmaq üçün rəhbərlik tərəfindən yaradılmış uzunmüddətli planlardır (Dağlar, 2019).

Boyneyə (2010) görə, strateji planlaşdırma məqsədlərə çatmaq üçün resursların səfərbər edilməsindən və işlərin inteqrasiyasından ibarətdir. Planlaşdırma idarəetmənin ilk və ən vacib mərhələsidir ki, adətən, bir sıra əlaqəli proseslərdən ibarət dövr kimi konseptuallaşdırılır (Boyne, 2010). Buna baxmayaraq, ATM-lər öz işlərini biznesdən fərqli şəkildə planlaşdırırlar. Bunun səbəbi ATM-lərin xidmətyönlü və sosial missiyaya malik qurumlar olması ilə əlaqədardır. Strateji planlaşdırma təhsil sisteminin və elmi inkişafın zərurəti ilə ATM-i rəqabətədavamlı mövqeyə gətirir. Eyni zamanda, resurslardan səmərəli istifadəni təmin etməklə fəaliyyətə əsaslanan bir sistem kimi meydana çıxmasını tələb edir (Bahar, 2020; 2019).

### ƏDƏBİYYAT İCMALI

Strategiya məqsədə çatmaq üçün izlənilən yol və üsuldur (Məmmədov, 2023). Dinçərə görə, strategiya – "müəssisəyə istiqamət vermək və rəqabət üstünlüyü təmin etmək üçün qurumu və onun mühitini daim təhlil etmək, ahəngdar məqsədləri müəyyən etmək, fəaliyyətləri planlaşdırmaq, lazımi alət və resursları yenidən təşkil etmək prosesidir" (Dinçer, 2007). Strategiya gündəmdə özünəməxsus mövqeni müəyyənləşdirib, rəqabət və çağırışlarla məşğul olmaq, uğuru və eyni zamanda gücü də təmin etmək üçün doğru üsuldur (Porter, 1996). Strategiya anlayışı düşünmək, qərar vermək və uzunmüddətli hədəflər deməkdir. O, təşkilatın gələcəyi üçün uzunmüddətli planları nəzərdə tutur və bu planların həyata keçirilməsi üçün görüləcək işlərə diqqət yetirir. Qurumla onun xarici mühiti arasında əlaqənin olub-olmaması onun strategiyasından asılıdır. Bu harmoniyaya nail olmaq üçün istifadə edilən bütün üsullar qurumun strategiyasında müəyyən edilməlidir (Maviş, 1988).

**İstinad**: Xalıqova, N. (2025). Azərbaycanın dövlət ali təhsil müəssisələrində strateji planlaşdırma işinin təşkili. *Azərbaycan məktəbi*. № 2 (711), səh. 20–38. https://doi.org/10.30546/32898065.2025.2.014

# Ədəbiyyat icmalı

Ədəbiyyat icmalı (literature review) müəyyən bir mövzu üzrə mövcud elmi mənbələrin sistemli təhlilidir.

Ədəbiyyat icmalı:

- Müvafiq mövzu üzrə hansı araşdırmaların mövcud olduğunu göstərir.
- Yeni tədqiqat üçün baza yaradır.
- Yeni tədqiqatın aparılmasının vacibliyini əsaslandırır.
- Əvvəlki tədqiqatların nəticələrini ümumiləşdirir və sintez edir.
- Sadəcə ayrı-ayrı araşdırmaları ardıcıl şəkildə təsvir etmir. Bu mərhələdə ayrı-ayrı mənbələr sadəcə təsvir edilmir, onların nəticələri bir-biri ilə əlaqələndirilir.
- Tədqiqat üçün nəzəri və ya konseptual çərçivə yaradır.

# ƏDƏBİYYAT İCMALI

## 1 ƏSAS ANLAYIŞLAR

**Bu mövzu ilə bağlı əsas anlayışlar nələrdir?**

- Mövzunun əsas anlayışları, terminlər, nəzəri çərçivə
- Anlayışların qısa izahı və aralarındakı əlaqələr

→

## 2 MƏLUMAT

**Bu mövzu haqqında artıq nələr məlumdur?**

- Mövcud tədqiqatlar və elmi nəşrlər
- Statistik göstəricilər, faktlar və sübutlar
- Əvvəlki nəticələr və trendlər

→

## 3 BOŞLUQ – TƏDQİQATIN VERƏCƏYİ TÖHFƏ

**Bu mövzu ilə bağlı hələ nələri bilmirik? Tədqiqat hansı töhfəni verəcək?**

- Mövcud boşluqlar və açıq qalan məsələlər
- Tədqiqatın cavablandıracağı suallar
- Gözlənilən töhfə, yenilik və praktiki əhəmiyyət

# Ədəbiyyat icmalı

Ədəbiyyat icmalının hazırlanması aşağıdakı ***4 əsas addımdan*** ibarətdir:

- Müvafiq elmi mənbələrin axtarılması
- Elmi nəşrlərin dəyərləndirilməsi
- Əsas mövzuların, elmi mübahisələrin və tədqiqat boşluqlarının müəyyən edilməsi
- Ədəbiyyat icmalının yazılması

# Addım 1. Müvafiq elmi mənbələrin axtarılması

Tədqiqat mövzusu ilə bağlı açar sözlərin siyahısı müəyyənləşdirilir. Bu zaman mövzu ilə bağlı əsas anlayışlar və dəyişənlər, eyni zamanda onların sinonimləri və əlaqəli terminlərdən istifadə edilir.

***<u>Nümunə</u>***

**Mövzu:** Valideyn dəstəyinin ibtidai sinif şagirdlərinin akademik uğurlarına təsiri

**Valideyn dəstəyi** - valideyn dəstəyi, ailə dəstəyi, valideyn iştirakı, valideyn-uşaq münasibətləri, valideyn nəzarəti, məktəb-validyn əməkdaşlığı

**İbtidai sinif şagirdləri** - ibtidai sinif şagirdləri, uşaqların öyrənməsi, kiçikyaşlı məktəblilər

**Akademik nailiyyət** - akademik nailiyyət, akademik uğur, şagird nailiyyəti, təhsil nəticələri, akademik performans, məktəb nəticələri, qiymət göstəriciləri, test nəticələri, öyrənmə nəticələri, təhsil nailiyyətləri, akademik göstəricilər, tədris nəticələri

# Müvafiq elmi mənbələrin axtarılması

Açar sözlər müəyyənləşdirildikdən sonra elmmetrik bazalarda etibarlı nəşrlər axtarılır: Etibarlı beynəlxalq elmmetrik bazalara bir neçə nümunə aşağıda təqdim olunmuşdur:

- Web of Science (WoS)
- Scopus
- ERIH Plus
- ERIC
- EconLit
- UGC CARE

# Addım 2. Elmi nəşrlərin dəyərləndirilməsi

Elmi nəşrləri dəyərləndirərkən aşağıdakı məqamlara diqqət etmək vacibdir:

🎓 Elmi nəşrlərin rəyçilər tərəfindən qiymətləndirilməsinin (peer-review) yoxlanılması
📚 Müəllif tərəfindən təqdim edilən məlumatların uyğun istinadlarla təsdiqlənməsinin yoxlanılması
⚖️ Məqalənin dərc olunduğu jurnalın və ya veb-saytın elmi etibarlılığının və nüfuzunun (indekslənmə, impakt faktoru, yırtıcı jurnal olmaması və s.) qiymətləndirilməsi
 Elmi nəşrin akademik dürüstlük, etik tədqiqat prinsipləri, obyektivlik və şəffaflıq standartlarına uyğunluğunun müəyyən edilməsi
✍️ Elmi nəşrin akademik yazı qaydalarına uyğun tərtib olunmasının yoxlanılması

# Addım 3. Əsas anlayışların, elmi müzakirələrin və tədqiqat boşluqlarının müəyyən edilməsi

- Mövzu üzrə əsas ideya və anlayışların müəyyənləşdirilməsi
- Elmi mənbələrdə ortaq və fərqli yanaşmaların təhlili
- Mövcud tədqiqatlarda mübahisəli məqamların aşkar edilməsi
- Araşdırılmamış və ya az tədqiq olunmuş sahələrin (research gaps) müəyyənləşdirilməsi

# Addım 4. Mənbələrin təhlili və sintezi

Ədəbiyyat icmalının sonuncu mərhələsi mənbələrdən əldə olunan məlumatların təhlil edilməsi və ümumiləşdirilməsidir.

- Mənbələrin sintezi ədəbiyyat icmalında müxtəlif tədqiqatlardan əldə olunan məlumatların birləşdirilərək ümumi mənzərənin yaradılması prosesidir.
- Bu mərhələdə ayrı-ayrı mənbələr sadəcə təsvir edilmir, onların nəticələri bir-biri ilə əlaqələndirilir.
- Oxşar nəticələr qruplaşdırılır və ümumi tendensiyalar müəyyən olunur.
- Eyni zamanda, tədqiqatlar arasındakı fərqlər və ziddiyyətlər də qeyd edilir və bunun mümkün səbəbləri izah olunur.
- Sintez nəticəsində mövzu üzrə vahid və əsaslandırılmış ümumi fikir formalaşdırılır.
- Beləliklə, ədəbiyyat icmalı sadə xülasədən çıxaraq analitik və elmi məzmun daşıyır.

# Ədəbiyyat icmalı yazarkən tədqiqatçılar tərəfindən tez-tez yol verilən səhvlər

- Elmi mənbələrin nəticələri qiymətləndirilmədən düzgün qəbul edilir.
- Öz tədqiqatı ilə ziddiyyət təşkil edən tədqiqatlara ədəbiyyat icmalında yer verilmir.
- İstifadə olunan elmi mənbələr öz tədqiqat mövzusu ilə aydın şəkildə əlaqələndirilmir.
- Elmi mənbələr sadəcə xülasə edilir, lakin onların nəticələri bir-biri ilə əlaqələndirilərək təhlil edilmir (sintez edilmir).
- Köhnə və ya aktual olmayan mənbələr kifayət qədər əsaslandırılmadan istifadə edilir.
- Akademik etika qaydalarına uyğun olmayan hallar, o cümlədən plagiat kimi hallara yol verilir (məsələn, mənbələr düzgün göstərilmir və ya başqalarının fikirləri müəllif göstərilmədən istifadə edilir).

# Mövzunun önəminin vurğulanması

Giriş ümumi mövzunu və tədqiqatın önəmini  təqdim etməlidir. Mövzunun önəmi dedikdə aşağıdakılar nəzərdə tutula bilər:

- Tədqiqatın nəticələrinin ümumilikdə cəmiyyətə, təhsil sisteminə və ya sosial problemlərin həllinə potensial təsirini vurğulamaq
- Mövcud ədəbiyyatda hansı çatışmazlıqların, araşdırılmamış sahələrin və ya ziddiyyətli nəticələrin olduğunu göstərmək
- Tədqiqatın mövcud nəzəriyyələrə hansı töhfəni verdiyini, onları necə genişləndirdiyini və ya yoxladığını izah etmək
- Nəticələrin müəllimlər, məktəblər, təhsil siyasəti və ya praktik tətbiqlər üçün necə faydalı olacağını göstərmək
- Yeni metod, ölçmə vasitəsi təqdim olunması və ya təkmilləşdirilməsi
- Mövzunun beynəlxalq tendensiyalar, qlobal problemlər və ya SDG kimi çərçivələrlə əlaqəsini göstərmək (məsələn, BMT Dayanıqlı İnkişaf Məqsədləri)

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

## Giriş nümunəsi 1 (Mövzunun önəminin vurğulanması):

Loneliness among children seems to be widespread. A recent literature review showed that about 10–15% of the children and adolescents felt very lonely (Galanaki & Vassilopoulou, 2007). Based on studies among typically developing individuals, a peak in the prevalence of loneliness can be expected during adolescence (Perlman & Landolt, 1999). During adolescence, the social expectations, roles, relationships, and personal identities of individuals undergo significant changes (Heinrich & Gullone, 2006). Social relations become increasingly important and adolescents spend considerably more time with their peers, away from adult supervision (Brown & Klute, 2003; Rubin, Bukowski, & Parker, 2006). Additionally, early adolescence coincides with the transition from elementary to secondary school. In recent years, this transition phase, which is often marked by the breakup of old friendships and forming new relationships, has been highlighted as an area of concern (Hardy, Bukowski, & Sippola, 2002; Humphrey & Ainscow, 2006). These significant changes in adolescents' social worlds might be related to the peak in the prevalence of loneliness during this time.

It seems that students with SEN experience even more loneliness (e.g., Pijl, Skaalvik, & Skaalvik, 2010; Reversi, Langher, Crisafulli, & Ferri, 2007). One of the subgroups of students with SEN fully included in Flemish mainstream schools are students with autism spectrum disorder (ASD). Students with ASD form a special group when it comes to loneliness. For a long time, it has been suggested that children with ASD have a "basic desire for aloneness" (Kanner, 1943, p. 249). Aloneness is distinct from loneliness. Whereas aloneness is associated with a pleasant, positive and sometimes desirable situation, loneliness is not (Margalit, 1994). Only recently researchers have tried to solve the question whether students with ASD are satisfied with their aloneness, as suggested by Kanner, or if they do feel lonely. So far, several studies have indicated that children and adolescents with ASD indeed reported higher levels of loneliness in comparison to their typically developing peers (e.g., Bauminger & Kasari, 2000; Bauminger, Shulman, & Agam, 2003, 2004; Lasgaard, Nielsen, Eriksen, & Goossens, 2010; Locke, Isjijima, Kasari, & London, 2010; Whitehouse, Durkin, Jaquet, & Ziatas, 2009).

**İstinad:** Bossaert, G., Colpin, H., Pijl, S. J., & Petry, K. (2012). Loneliness among students with special educational needs in mainstream seventh grade. *Research in Developmental Disabilities*, *33*(6), 1888–1897. https://doi.org/10.1016/j.ridd.2012.05.010

## Giriş nümunəsi 2 (Mövzunun önəminin vurğulanması):

### GİRİŞ

Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri keyfiyyətin artırılması və pedaqoqların peşəkar inkişafının davamlı təmin edilməsidir. Tədris prosesinin effektivliyini artırmaq üçün müəllimlərin müasir pedaqoji metodları mənimsəməsi və praktik fəaliyyətlərində tətbiq etməsi vacibdir. Bu məqsədə nail olmaq üçün pedaqoqların metodik dəstək vasitəsilə mütəmadi olaraq yenilənən bilik və bacarıqlarla təmin olunması mühüm əhəmiyyət kəsb edir. Metodik dəstək müəllimlərin pedaqoji fəaliyyətini təkmilləşdirməyə, yeni tədris yanaşmalarını mənimsəməyə və innovativ metodlardan səmərəli istifadəyə imkan yaradır. Lakin bir çox təhsil müəssisələrində metodik dəstək mexanizmlərinin kafi səviyyədə olmaması pedaqoqların peşəkar fəaliyyətində çətinliklər yaradır. Bu onların müasir təlim strategiyalarını tam şəkildə tətbiq edə bilməməsinə və tədris prosesində qarşıya çıxan

### TƏDQİQATIN ƏHƏMİYYƏTİ

Təhsilin keyfiyyətinin artırılması müasir dövrün ən vacib məsələlərindən biridir və bu məqsədə çatmaq üçün pedaqoqların peşəkar inkişafı zəruri sayılır. Tədrisin effektivliyini artırmaq və müəllimlərin peşəkar fəaliyyətini təkmilləşdirmək üçün metodik dəstək mexanizmlərinin düzgün tətbiqi mühüm rol oynayır. Bu tədqiqatın əhəmiyyəti məhz metodik dəstəyin təhsilin keyfiyyətinə təsirini elmi cəhətdən əsaslandırmaq və pedaqoqların inkişafını dəstəkləyən yeni yanaşmaların inkişafına töhfə verməsi ilə izah oluna bilər. Tədqiqatın əhəmiyyəti həm nəzəri, həm də praktik cəhətdən özünü göstərir. Bir tərəfdən, metodik dəstəyin pedaqoji fəaliyyətə olan təsiri nəzərdən keçirilərək bu sahədəki elmi boşluqların aradan qaldırılmasına kömək edir. Digər tərəfdən, tədqiqatın nəticələri təhsil müəssisələri və müəllimlər üçün konkret tövsiyələr və praktik həllər təqdim edir. Bu, pedaqoqların innovativ

**İstinad:** Əsədova, A. (2025). Təhsilin keyfiyyətinin artırılmasında metodik dəstəyin əhəmiyyəti. Azərbaycan məktəbi. № 2(711), səh. 39–48 https://doi.org/10.30546/32898065.2025.2.016

# Tədqiqat boşluqlarının müəyyənləşdirilməsi

Tədqiqat boşluqları tədqiqatın giriş bölməsində (research gap) müəyyən edilməlidir. Tədqiqat boşluqları aşağıdakılardan biri və ya bir neçəsi ola bilər:

- Mövzu üzrə kifayət qədər tədqiqatın olmaması
- Əvvəlki tədqiqatların məhdudiyyətləri
- Həll olunmamış problemin mövcudluğu
- Əvvəlki ədəbiyyatda ortaq fikrin olmaması

# Tədqiqat boşluqlarının müəyyənləşdirilməsi

Ədəbiyyatda boşluq nümunələri:

- **Az araşdırılmış qruplar**

Mövzu əsasən universitet tələbələri üzərində araşdırılıb, lakin ibtidai sinif şagirdləri az tədqiq olunub.

- **Yeni dəyişənlər**

Əvvəlki tədqiqatlarda motivasiya və nailiyyət arasındakı əlaqə araşdırılıb, lakin rəqəmsal bacarıqlar dəyişəni nəzərə alınmayıb.

- **Köhnəlmiş nəzəriyyələr**

Araşdırmalar köhnə təhsil nəzəriyyələrinə əsaslanıb və müasir yanaşmalar istifadə edilməyib.

- **Məhdud coğrafi ərazilər**

Tədqiqatların əksəriyyəti Avropa ölkələrində aparılıb, Azərbaycan kontekstində isə kifayət qədər araşdırma yoxdur.

- **Yoxlanılmamış metodlar**

Əvvəlki araşdırmalarda yalnız sorğu metodundan istifadə olunub, qarışıq metod yanaşması isə yoxlanılmayıb.

ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Tədqiqat boşluğu nümunəsi

Although these studies provide important insights into the experiences of individuals with ASD, a lot of questions remain unanswered. First of all, not much is known about loneliness prevalence of students with ASD during early adolescence. Former studies on loneliness of individual of ASD had very broad age ranges, with subjects between 8 and 17 years old. In only two studies, the grade/age range of the participants was limited to three grade levels (Chamberlain, Kasari, & Rotherham-Fuller, 2007; Lasgaard et al., 2010) and one study did not report the grade/age ranges of the participants (Locke et al., 2010).

Həll olunmamış problem

Secondly, although these studies give us a general idea about loneliness feelings among individuals with ASD, knowledge on loneliness among students with ASD in fully inclusive settings is still scarce. To date, the majority of the studies compared loneliness of students with ASD in special education or in self-contained classrooms in mainstream settings to loneliness feelings of typically developing students in mainstream education. Two studies have focused on loneliness among students with ASD in fully inclusive settings (i.e., Locke et al., 2010; Whitehouse et al., 2009). In the Whitehouse study (2009), students

Kifayət qədər tədqiqatın olmaması

**İstinad:** Bossaert, G., Colpin, H., Pijl, S. J., & Petry, K. (2012). Loneliness among students with special educational needs in mainstream seventh grade. *Research in Developmental Disabilities*, *33*(6), 1888–1897. https://doi.org/10.1016/j.ridd.2012.05.010

# Tədqiqat boşluqları: Niyə Sizin Tədqiqatınız Lazımdır?

## Zəif ifadə

"Daha çox tədqiqata ehtiyac var" — bu ümumi və qeyri-müəyyəndir. Oxucu konkret nəyin çatışmadığını başa düşmür və tədqiqatınızın dəyəri aydın olmur.

## Güclü ifadə

"Əvvəlki tədqiqatlar X populyasiyasında Y-ni öyrənməmişdir" və ya "Mövcud metodlar Z-ni həll edə bilmir." Boşluq ədəbiyyat icmalınızdan məntiqi olaraq çıxmalı və tədqiqat sualınızla birbaşa əlaqələndirilməlidir.





# Tədqiqatın məqsədi

Tədqiqatın məqsədi Girişin sonunda **aydın və dəqiq** şəkildə ifadə edilməlidir. Oxucu məqalənin nəyi həll edəcəyini bilməlidir.

**Nümunə 1**

Bu tədqiqat ibtidai sinif şagirdlərinin oxu bacarıqları ilə onların akademik nailiyyətləri arasındakı əlaqəni araşdırmağı hədəfləyir.

**Nümunə 2**

Bu məqalənin məqsədi layihə əsaslı təlim yanaşmasının şagirdlərin tənqidi düşünmə bacarıqlarının inkişafındakı rolunu qiymətləndirməkdir.

# Tədqiqatın məqsədi və vəzifələri

Giriş bölməsində tədqiqatın məqsədi və vəzifələri qeyd olunmalıdır. Tədqiqatın məqsədi daha geniş xarakter daşıyır və tədqiqatın ümumi istiqamətini və nəyi araşdırmağı hədəflədiyini göstərir.

Bəzi tədqiqatlarda tədqiqatın vəzifələrinə də yer verilir. Tədqiqatın vəzifələri isə məqsədə çatmaq üçün yerinə yetirilməsi vacib olan konkret mərhələlər və addımlardır. Yaxşı yazılmış tədqiqat vəzifələri **“SMART”** olmalıdır.

# SMART YANAŞMASI ÜZRƏ TƏDQİQAT VƏZİFƏLƏRİNİN YAZILMASI

| | | | |
|---|---|---|---|
| **S** | **Specific** (Spesifik) | • Vəzifə dəqiq və aydın olmalıdır. Nə araşdırılacağı konkret şəkildə yazılmalı, ümumi və qeyri-müəyyən ifadələrdən qaçınılmalıdır. | **NÜMUNƏ:** Məktəblilərin oxu vərdişlərinin inkişaf səviyyəsini araşdırmaq. |
| **M** | **Measurable** (Ölçülə bilən) | • Vəzifənin nəticəsi ölçülə bilən olmalıdır. Yəni onun yerinə yetirilib-yetirilmədiyini müəyyən etmək mümkün olmalıdır (məsələn, say, faiz və ya müəyyən göstərici ilə). | **NÜMUNƏ:** Sorğuda iştirak edən şagirdlərin ən azı 70%-nin oxu vərdişləri səviyyəsini müəyyən etmək. |
| **A** | **Achievable** (Əlçatan) | • Vəzifələr real olmalı və tədqiqatın imkanları daxilində yerinə yetirilə bilməlidir. | **NÜMUNƏ:** Məktəbin imkanları və mövcud resursları çərçivəsinde 100 şagird üzərində tədqiqat aparmaq. |
| **R** | **Relevant** (Əlaqəli) | • Vəzifələr ümumi tədqiqat məqsədi ilə uyğun olmalıdır. | **NÜMUNƏ:** Oxu vərdişlərinin inkişaf səviyyəsini müəyyən etmək tədqiqatın əsas məqsədi ilə uyğun olmalıdır. |
| **T** | **Time-bound** (Vaxtla məhdud) | • Hər bir vəzifə üçün müəyyən edilmiş zaman çərçivəsi olmalı, bu da onların tədqiqat müddəti ərzində yerinə yetirilməsini təmin etməlidir. | **NÜMUNƏ:** Məlumatların toplanması və təhlili 2024-cü ilin mart–may ayları ərzində tamamlanmalıdır. |

**NƏTİCƏ:** SMART yanaşması üzrə yazılmış vəzifələr tədqiqatın məqsədyönlü, ölçülə bilən, real, məqsədəuyğun və müəyyən vaxt ərzində tamamlanmasını təmin edir.

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# Tədqiqat sualı

**Tədqiqat sualı** araşdırmanın cavab axtardığı əsas sual və ya suallar toplusudur.

- Tədqiqat sualları araşdırmanın istiqamətini müəyyənləşdirir və problemin sistemli şəkildə öyrənilməsinə kömək edir.
- Tədqiqat sualları tədqiqat məqsədləri və hipotezlər ilə birbaşa əlaqəlidir.
- Əsas tədqiqat sualı və onu dəstəkləyən alt suallar şəklində qurula bilər.
- Suallar birbaşa tədqiqat problemindən və məqsədlərindən irəli gəlməlidir.

# Tədqiqat sualı

Tədqiqat sualı aydın, araşdırıla bilən və spesifik olmalıdır.

- **Aydın:** Asan başa düşülən, qeyri-müəyyən ifadələrdən uzaq olan
  **Nümunə:** *İbtidai sinif şagirdlərinin riyaziyyat dərslərində çətinlik yaşadığı mövzular hansılardır?*
- **Araşdırıla bilən:** Akademik mənbələr, məlumatlar və ya analizlə cavablandırıla bilən
  **Nümunə:** *"Çevrilmiş sinif" modelinin ibtidai sinif şagirdlərinin oxu bacarıqlarına təsiri necədir?*
- **Spesifik:** Nəyi araşdırdığını dəqiq şəkildə göstərən
  **Nümunə:** *Azərbaycanın Bakı şəhərində ibtidai siniflərdə oxu bacarıqlarının inkişafında interaktiv metodların rolu nədir?*

# Tədqiqat sualı nümunəsi

This study aimed to answer some of these lacks in the current knowledge base on loneliness among students with SEN fully included in mainstream secondary education. In particular, the following research questions were investigated:

(1) Does the prevalence of loneliness differ among typically developing students, students with ASD, and students with motor and/or sensory disabilities?

(2a) Are there relations between number of perceived friends, friendship quality, social self-concept on the one hand and loneliness on the other for typically developing students, students with ASD, students with motor and/or sensory disabilities?

(2b) Do the relations between number of perceived friends, friendship quality and social self-concept on the one hand and loneliness on the other differ between these three groups, i.e., typically developing students, students with ASD, and students with motor and/or sensory disabilities?

**İstinad:** Bossaert, G., Colpin, H., Pijl, S. J., & Petry, K. (2012). Loneliness among students with special educational needs in mainstream seventh grade. *Research in Developmental Disabilities*, *33*(6), 1888–1897. https://doi.org/10.1016/j.ridd.2012.05.010

# Hipotezlər

- **Tədqiqat sualları** tədqiqatın cavablandırmağa çalışdığı əsas sualları ifadə edir və araşdırmanın istiqamətini müəyyənləşdirir. Tədqiqat sualı/sualları bütün növ tədqiqatlarda (kəmiyyət, keyfiyyət, qarışıq metod tədqiqatlarında) qoyula bilir.

- **Hipotezlər** isə dəyişənlər arasındakı gözlənilən əlaqə və ya fərqlə bağlı tədqiqatçının irəli sürdüyü yoxlanıla bilən fərziyyələrdir. Başqa sözlə, tədqiqatçı nəticənin necə olacağını əvvəlcədən təxmin edir və bunu yoxlamaq istəyir. Hipotezlər kəmiyyət tədqiqat metodunda tətbiq olunur.

**Tədqiqat sualı:**
Şagirdlərin ev tapşırıqlarına ayırdıqları vaxt onların riyaziyyat fənni üzrə nəticələrinə necə təsir edir?

**Hipotez:**
Ev tapşırıqlarına daha çox vaxt ayıran şagirdlər riyaziyyat fənni üzrə daha yüksək nəticə göstərirlər.

**Dəyişənlər:**
**Müstəqil dəyişən:** ev tapşırıqlarına ayrılan vaxt
**Asılı dəyişən:** riyaziyyat fənni üzrə nəticələr

ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# Hipotezlər

- Qeyri-müəyyən ifadələrdən uzaq olmalı, aydın və konkret şəkildə formalaşdırılmalıdır.
- Mütləq şəkildə ölçülə bilən və statistik üsullarla yoxlanıla bilən olmalıdır.
- Mühakimə xarakteri daşımalıdır.
- Məntiqi əsaslara söykənməlidir.
- Tədqiqatda nəzərdən keçirilən dəyişənlər arasındakı əlaqəni göstərməlidir.

# Hipotezlər

Hipotezlər 2 növ olur. **Sıfır hipotez (H0)** və **Alternativ hipotez (H1)**.

**Sıfır hipotez (H0)** dəyişənlər arasında heç bir əlaqə və ya təsirin olmadığını iddia edir. Yəni tədqiqatçı fərqin və ya əlaqənin olmadığını qəbul edir və bunu yoxlamağa çalışır.

**Alternativ hipotez (H1)** isə dəyişənlər arasında əlaqə və ya təsirin olduğunu irəli sürür. Bu hipotez isə sıfır hipotezində iddia edilənin doğru olub-olmamasını yoxlamaq məqsədilə formalaşdırılır.

***Nümunə:***

**H0:** Birinci kurs tələbələrinin iştirak etdiyi mühazirələrin sayı (əsas dəyişən) onların yekun imtahan nəticələrinə (asılı dəyişən) heç bir təsir göstərmir.

**H1:** Birinci kurs tələbələrinin iştirak etdiyi mühazirələrin sayı (əsas dəyişən) onların yekun imtahan nəticələrinə (asılı dəyişən) müsbət təsir göstərir.

# İstifadə olunmuş ədəbiyyat siyahısı


- Academic English Now. (2025, August 27). *How to write an introduction to a research paper for a Q1 journal* [Video]. YouTube. https://www.youtube.com/watch?v=W5z6--xypbM
- Al-Haddad, S. S., Afari, E., Khine, M. S., & Eksail, F. A. A. (2023). Self-regulation, self-confidence, and academic achievement on assessment conceptions: an investigation study of pre-service teachers. *Journal of Applied Research in Higher Education*, *15*(3), 813–826. https://doi.org/10.1108/JARHE-09-2021-0343
- Bossaert, G., Colpin, H., Pijl, S. J., & Petry, K. (2012). Loneliness among students with special educational needs in mainstream seventh grade. *Research in Developmental Disabilities*, *33*(6), 1888–1897. https://doi.org/10.1016/j.ridd.2012.05.010
- Creswell, J. W. (2018). Research design: Qualitative, quantitative, and mixed methods approaches (5th ed.). SAGE Publications.
- Əsədova, A. (2025). Təhsilin keyfiyyətinin artırılmasında metodik dəstəyin əhəmiyyəti. Azərbaycan məktəbi. № 2(711), səh. 39–48 https://doi.org/10.30546/32898065.2025.2.016
- Hinton-Smith, T., Marvell, R., Morris, C., & Brayson, K. (2022). “It’s not something that we think about with regard to curriculum.” Exploring gender and equality awareness in higher education curriculum and pedagogy. *Gender and Education*, *34*(5), 495–511. https://doi.org/10.1080/09540253.2021.1947472

ARTİ AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

# İstifadə olunmuş ədəbiyyat siyahısı


- Jenni AI. (n.d.). *Literature review section of a research paper*. Jenni AI. https://jenni.ai/blog/literature-review-section-of-a-research-paper
- McCombes, S. (2025, January 22). *How to Write a Literature Review | Guide, Examples, & Templates.* Scribbr. https://www.scribbr.com/dissertation/literature-review/
- Ryan, E. (2023, November 20). *Research Objectives | Definition & Examples.* Scribbr. https://www.scribbr.com/research-process/research-objectives/
- Sultanlı, L. (2025). Peşə təhsili müəssisələrində mühəndis pedaqoji heyətin bilik və bacarıq səviyyəsinin əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasına təsiri. Azərbaycan məktəbi. № 2 (711), səh. 9–19. https://doi.org/10.30546/32898065.2025.2.010
- Vəliyeva, Ş. M. (2025). Statistik araşdırmada hipotez testinin gücünün əhəmiyyətliliyi. *Scientific News of Academy of Physical Education and Sport, 7*(3), 32–36. https://doi.org/10.28942/ssj.v7i3.899
- Xalıqova, N. (2025). Azərbaycanın dövlət ali təhsil müəssisələrində strateji planlaşdırma işinin təşkili. *Azərbaycan məktəbi*. № 2 (711), səh. 20–38. https://doi.org/10.30546/32898065.2025.2.014